# MƏKTƏB COĞRAFİYASININ TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ İNTELLEKTUAL ZƏKANIN ( İQ) İNKİŞAF ETDİRİLMƏSİ İMKANLARI

N.S.Seyfullayeva
Pedaqoji elmlər namizədi, dosent
narminaseyfullayeva1957@gmail.com
BDU

Məqalədə öyrənənlərin intellektual zəka (İQ)səviyyəsinin coğrafiya fənninin tədrisində ölçülə bilməsi imkanları, tapşırıqların hazırda təhsil sisteminin əsas məqsədi sayılan XXI əsr bacarıqlarının formalaşdırılmasındakı rolundan bəhs olunur. Məqalədə həm də Coğrafiya fənninin məzmunda intellektual zəka (İQ) səviyyəsini üzə çıxaran tapşırıq nümunələrinin təqdim edilməsi onların şagirdlərin dünyagörüşünə habelə fənnin məzmunun mənimsənilməsinə müsbət təsiri təhlil edilir.

**Açar sözlər:** intellektual zəka (İQ), təfəkkürün növləri, XXI əsr bacarıqları, monitorinq və qiymətləndirmə, Addım1,cədvəl, xəritə

Əksər ədəbiyyatlarda intellektin ən geniş yayılmış tərifi insanın düşünmə, öz-özü ilə mübahisə etmə, həqiqətləri qəbul etmə, mühakimə etmə və nəticə çıxarma qabiliyyətlərinin cəmi kimi tərif edilir. Bu eyni zamanda XXI əsr bacarıqlarının formalaşmasına verilən tələblərdir və demək olar ki, gələcək nəsillərdə bacarıqları yaratmaq üçün onların intelektual zəkalarının inkişaf etdirilməsi ön plana çəkilməlidir. İntellektual zəkaya sahib olan insanlarda səbəb və nəticə arasındakı əlaqəni tapmaq, məntiqi ardıcıllığı müəyyən etmək, hadisə və prosesləri əlaqələndirmək, oxşar və fərqli cəhətləri anlaya bilmək və s. kimi yüksək səviyyə göstəriciləri daha yuxarıdır.

XXI əsrin bacarıqları sayılan kimi fikirlərini əsaslandıra bilmək; tənqidi düşünməyi bacarmaq; interaktivlik; əməkdaşlıq; ünsiyyət; İKT-dən istifadə bacarıqları; fikirlərini ifadə etmək və başqalarını dinləmək; araşdırma apararaq məlumat toplamaq üsullarını bilmək; informasiya savadlılığı; öz fikirlərini isbat edə

bilmək fəaliyyətlərinin hər biri üçün intellektual zəka tapşırıqları tərtib etmək mümkündür.( Metodika və Pedaqogika 2022 s170)

Cəmiyyətdə İQ tapşırıqlarına maraq getdikcə daha artır. Xüsusilə son illərdə gənclərin bakalavr, magistr, doktorantura təhsil səviyyələrinə qəbul edilməsində, kadrların işə götürülməsində onların intellektual zəka qabiliyyətlərinin yüksək olmasına diqqət edilməsi daha aktual olmuşdur. Bu da həqiqətdir ki, kadrlarınn işə götürülməsi intellektual zəka (İQ) ilə ölçülsə də onun karyerasında irəliləməsi üçün artıq emosional zəka (EQ) səviyyəsinin yüksək olması vacib faktordur. Emosional zəkanın səviyyəsinin qiymətləndirilməsini tədqiq edən amerikalı psixoloq Daniel Qoulmanın fikrinə görə şəxsin təhsildə, karyerada, ailə həyatında, sosial həyatda nüfuz qazanmaq, yüksək nailiyyət əldə etməsi üçün emosional intellektin yüksək, hətta İQ dən yüksək olması daha vacibdir. Çünki akademik zəkanın, informasiyanın yüksək olması ilə insanın emosiaonal həyatla əlaqəsi çox zəifdir.

Bütün bunlara baxmayaraq müasir dövrdə cəmiyytdə insanın intellekt səviyyəsinin yoxlanılması və səviyyəsi maraq doğurur. Lakin təcrübə göstərir ki, İQ bir neçə fənn, xüsusilə riyaziyyat üzrə daha geniş tətbiq edilir. Ümumtəhsil məktəblərində tədris olunan fənlərin monitorinqində və ya qiymətləndirilməsində intellektual zəka səyiyyəsini yoxlayan tapşırıqlar demək olar ki, tətbiq edilmir. Bu boşluğu aradan qaldırmaq üçün tədris prosesində intellektual zəka səviyyəsini üzə çıxaran tapşırıqların tətbiq edilməsinda fayda vardır.

Coğrafiya fənninin məzmunu təfəkkürün bütün növlərinin ( məntiqi, tənqidi, yaradıcı) inkişaf etdirilməsi üçün geniş imkanlara malikdir. İntellektual zəka testləri mətn, xəritə-sxem, şəkil, qrafik, cədvəl və s formalarda tərtib edilə bilər. Bu tapşırıqlar, öyrənənlərin coğrafi biliyini, dünyagörüşünü yoxlamaqla yanaşı onların

intellektual zəka (İQ) səviyyəsini də ölçməyə imkan verir. Tapşırıq nümunələri aşağıdakı kimi təqdim edilə bilər.

Cədvəl formasında olan intellektual zəka tapşırıqları öyrənənlərə problemə sistemli yanaşma, məntiqi ardıcıllıqla problemin həlli, öz fikirlərini isbat edə bilmək eyni zamanda informasiya savadlılığı kimi XXI əsr bacarıqlarının formalşdırılmasına imkan verir.

Nümunə:

Baykal- Nyasa, Titikaka- Miçiqan, Ladoqa- Eyr .... növbəti göllər qrupu hansı ola bilər?.

| |
|---|
| Tanqanika- Huron + |
| Çad- Cenevrə |
| Ontario- Marakaybo |
| Balaton- Eri |
| Bilmirəm |

Tapşırıq məntiqi təfəkkürə əsaslanır. Burada sadəcə göllərin qrup şəklində təqdim edilməsi deyil. Tapşırıqda cavabın təyin edilməsi özünəməxsus mexanizm ilə müəyyən edilir.

Addım 1. Şagirdlər cavabı tapmaq üçün ilk növbədə verilən gölləri yəni Baykal- Nyasa, Titikaka- Miçiqan, Ladoqa- Eyri təhlil etməlidirlər.

Addım 2. Baykal -Nyasa müxtəlif materiklərdə yerləşirlər, hər ikisi şirin sulu göldür. Bu o deməkdir ki cavabı tapmaq üçün təkcə Baykal – Nyasa kifayət deyil

Addım 3. Titikaka -Miçiqan qrupu nəzərdən keçirilir. Hər ikisi şirin sulu göldür, Lakin biri düzənlik, digəri isə dağlıq ərazidə yerləşir. Cavabı əsaslandırmaq üçün növbəti addım atılır

Addım 4. Ladoqa-Eyr göllər qrupu hər ikisi düzənlik ərazidədir. Digər göllər isə həm dağlıq həm də düzənlik ərazilərdə yerləçdiyinə görə göl çüxurlərinin mənşəyi də fərqlidir.

Addım 5. İkinci mərhələdə cədvəldə verilən göl qrupları təhlil olunmalıdır. Çünki göl qrulpları eyni materikdə yerləşmirlər, suyun tərkibi yeni deyil, eyni relyef formasında yerləşmirlər, buna görə də tektonik cəhətdən göl çüxurları eyni deyil.

Cavabı müəyyən etmək üçün şagirdlərin ( öyrənənin) xəritə biliyinə ehtiyac yaranır. Tapşırığı həll edən öz təfəkküründə gölləri xəritə "yerləşdirməklə" doğru cavaba yaxınlaşa bilər. Cədvəldəki göllərın yerləşməsi təhlil edilir:

Baykal- Nyasa – Baykal şimal, Nyasa -cənub yarımkürəsindədir

Titikaka- Miçiqan- Titikaka- cənub, Mişiqan şimal yarımkürəsindədir

Ladoqa- Eyr – Ladoqa şimal, Eyr cənub yarımkürəsindədir

Deməli növbəti göllər qrupu müvafiq olaraq cənub və şimal yarımkürəsində yerləşənlər olmalıdır ki. Bu da cavab olaraq Tanqanika- Huron ola bilər.

Coğrafiya fənninin tədrisində rəqəmlər, statistik materiallar mühüm rola malikdir. İqtisadi coğrafiya sahəsi üçzə rəqəm materialları dəyişkən olduğuna görə onların test tapşırıqlarında istifadə edilməsi məqsədəuyğun deyil. Fiziki coğrafiyada olan rəqəmlər əsasən dəyişməyən olduğuna görə intellektual test tapşırıqları tərtib etmək olar. Məsələn:

180, 93, 75 ....... növbəti rəqəm hansıdır

| |
|---|
| 15 |
| 22 |
| 13 + |
| 9 |
| 57 |
| 39 |
| Bilmirəm |

Cədvəlin üstündəki 180, 93, 75.... rəqəmlərinin nəyi ifadə etdiyini müəyyən etmək üçün şagirddən informasiya savadlılığı (XXI əsr bacarıqları) tələb olunur. Rəqəmləri təhlil edərkən hafizə biliklərinə istinad oluna bilər. Rəqəmlər okeanların sahəsini göstərir. 180, 93, 75....növbəti rəqəmi müəyyən etmək üçün dördüncü okeanın sahəsinin nə qədər olduğunu xatırlamaq kifayətdir. Cavab 13 olacaqdır.

İntellektual zəka səviyyəsinin coğrafiya fənni üzrə müəyyən edilməsində ən mükəmməl vasitəlırdən biri xəritə və sxemlər üzərində tərtib edilən tapşırıqlardır.

Rəqəm materialları əsasında tərtib olunan digər tapşırıq növlərini çətinlik dərəcəsi daha yüksəkdir. Məsələn

+2237 və -16; + 6959 və -40; +6194 və 86 ... növbəti rəqəmləri tapın.

| |
|---|
| +8848 və -28 |
| + 4167 və +155 |
| + 5895 və - 155 + |
| + 4808 və +28 |
| + 2237 və -123 |
| Bilmirəm |

Tapşırığı həll etmək üçün ilk növbədə rəqəmləri və qarşısında müsbət və mənfi işarələrin mahiyyətini bilmək tələb olunur. Qitələrin ən hündür və ən alçaq mməntəqələrinin göstərildiyi tapşırqdır. Hafizə biliyindən əlavə məntiqi təfəkkür tələb olunur. Cavab verənlər üçün təkcə bir qitədə maksimum və minimum hündürlüyü bilmək kifayətdir. Cədvəldəki ilk rəqəm +8848 və -28 cəlbedici görünə bilər. Lakin tənqidi təfəkkür bacarığı Asiyada minimum hündürlüyünün -28 olmadığını müəyyən edə bilər. Şagirdlər üçün məlum olan Afrikanın maksimum hündürlüyü Klimancaronun 5895 m və Assal çökəyinin -155 m olduğunu müəyyən edə bilərlər.

Digər tapşırıq aşağıdakı kimi təqdim olunmuşdur.

 .....növbəti işarə nə ola bilər?

| | |
|---|---|
| 1 |  |
| 2 |  + |
| 3 |  |
| 4 |  |
| 5 | Bilmirəm |

Bu tipli tapşırıqlara cavab vermək üçün şagirdlərin verilən şərti işarələri hansı mineral ehtiyata aid olduğunu bilməsi vacibdir. Tapşırıqda verilmiş şərti işarələr qızıl, polimetal, aliminum, civənin işarəsidir. Məlum bilik cədvəldəki axtarış üçün əsas baza rolunu oynayır. İşarələrin hamısı filiz faydalı qazıntılara aiddir. Artıq şagirdin axtarmaq üçün məqsədi vardır. Cədvəldə birinci asbest, ikinci mis, üçüncü təbii qaz, dördüncü duzun işarəsidir. Şərti işarələrin xarakterini bilən öyrənci cavabın mis olduğunu asanlıqla təyin edə bilər.



Növbəti işarələr hansı ola bilər.

| | |
|---|---|
|  | |
|  | + |
|  | |
|  | |
|  | |

Tapşırığı həll edən ilk növbədə ox işarələrinin nəyi ifadə etdiyini bilməlidir. Coğrafiya fənninin məzmununda ox işarələrinin hansı mövzularda olduğunu yada salaraq cavabı tapmağa  doğru istiqamətlənir.

a) okeanlardakı cərəyan ola bilər- fikrinin səhv olması belə əsaslandırıla bilər: cərəyanların istiqamətində paralelleik yoxdur.

b) küləklərin istiqamətləri ola bilər- fikrin  səhv olması belə əsaslandırıla bilər:küləklər şimal və cənuba doğru paralel olara əks istiqamətdə axa bilmirlər

c) litosfer tavalarının hərəkəti ola bilər – fikrin  səhv olması bel əsaslandıra bilər: litosfer tavalarının  paralel olaraq şimala və ya cənuba doğru hərəki müşahidə olunmur

d) üfüqin istiqamətlərinin azimuta görə göstərilməsi ola bilər fikiri daha uyğun gəlir. Ox işarələri ardıcıl olaraq şərqə və şimal şərqə, qərbə və şimal qərbə, şərqə və cənub şərqədir. Növbəti ox işarələri qərbə və cənub qərbə doğru olacaqdır.  Cavab cədvəldə ikinci sıradadır.

İntellektual zəka səviyyəsini müəyyən etmək üçün coğrafiyanın məzmununda müxtəlif mətnlər, dərslikdəki şəkillər və digər illüstrativ mmateriallar  vardır.

Xəritə biliyinin yoxlanılması və ya monitorinqi məqsədi ilə aşağıdakı kimi test tapşırığı tərtib etmək olar.

Abşeron, Hirkan, Zəngəzur, Şirvan, Ağgöl,Göygöl, Altıağac, Şahdağ, Samur-Yalama.....nöbvəti ad hansı ola bilər.

İlk olaraq coğrafi adların hansı obyektə aid olduğunu müəyyən etmək lazımdır. Abşeron yarmada və oradakı milli parkı ifadə edir. Hirkan milli parkdir, Zəngəzur və Şahdağ dağ və milli parkdır, Şirvan düzənlik, yaşayış məskəni, milli park və şəhərdir. Ağğgöl və Göygöl də göl və milli parkdır, Altıağac da yaşayış məntəqəsi və milli parkdır. Samur yalama da kanal boyu milli parkdır. Fikirlərin




əsaslandırılması, məntiqi təfəkkürün fəaliyyəti nəticəsində coğrafi adları birləşdirən ümumi xüsusiyyət yəni onların milli park olması qərarı verilir. Azərbaycanda olan 10 milli parklardan birinin adının siyahidə olmaması həmin parkın adının axtarılmasını tələb edir. Bu Qızılağac Milli parkıdır. Bu tapşırığın daha müsbət cəhəti ondan ibarətdir ki. Şagird axtardığı məkanın xəritədə yerini təyin etməlidir. Xəritə biliyinə əsasən şagird 9-cu rəqəmin Qızılağac Milli parkı olduğunu əsaslandırır. ( Alxasov. 2021 s 126)

İntellektual zəka (İQ) səviyyəsinin müəyyən edilməsinin coğrafiya fənninə tətbiq edilməsi həm coğrafi dünyagörüşün yüksəlməsinə, şagirdlərin lokal, regional və qlobal miqyasda məkan təsəvvürünün möhkəmlənməsinə imkan verər və eyni zamanda onların bilik və bacarıq səviyyələrinin monitorinqi və yoxlanmasını təmin edə bilər. İntellektual zəka tapşırıqlarının müxtəlif

formalarını testlərin relevantlığına və mürəkkəblik dərəcəsinə uyğunlaşdırmaq mümkündür.

## Ədəbiyyat


1. Alxasov O. Hüseynli Ş. Babayeva M X sinif üçün Coğrafiya dərsliyi Bakınəşr 2021
2. Metodika və Pedaqogika  TAİM 2022 Maksimum tədris mərkəzi
3. https://aztehsil.com/news/14676-azerbaycanda-tehsilin-pilleleri-ve-seviyyeleri.html
4. https://as-journal.edu.az/intellektual-yoxsa-emosional-z%C9%99ka-vacibdir
5. https://www.litres.ru/book/deniel-goulman/emocionalnyy-intellekt-pochemu-on-mozhet-znachit-bolshe-che-5024477/
6. https://www.litres.ru/book/deniel-goulman/emocionalnyy-intellekt-pochemu-on-mozhet-znachit-bolshe-che-5024477/


## ВОЗМОЖНОСТИ РАЗВИТИЯ ИНТЕЛЛЕКТУАЛЬНОГО ИНТЕЛЛЕКТА (IQ) У ШКОЛЬНИКОВ ПРИ ПРЕПОДАВАНИИ ШКОЛЬНОЙ ГЕОГРАФИИ


Сейфуллаева Н.С.

Кандидат педагогических наук, доцент

(narminaseyfullayeva1957@gmail.com)

БГУ



В статье рассматриваются возможности измерения уровня интеллектуального интеллекта (IQ) учащихся при преподавании географии, роль заданий в формировании навыков XXI века, что в настоящее время считается основной целью системы образования. Также в статье анализируется положительное влияние приведения в содержании предмета «География» примеров заданий, раскрывающих уровень интеллектуального интеллекта (IQ), на мировоззрение учащихся, а также усвоение содержания предмета.



Ключевые слова: интеллектуальный интеллект (IQ), типы мышления, навыки XXI века, мониторинг и оценка. Шаг 1, таблица, карта

# POSSIBILITIES FOR DEVELOPING INTELLECTUAL INTELLIGENCE (IQ) IN SCHOOLCHILDREN WHEN TEACHING SCHOOL GEOGRAPHY

Seyfullaeva N.S.
Candidate of Pedagogical Sciences, Associate Professor
(narminaseyfullayeva1957@gmail.com)
BSU

The article discusses the possibilities of measuring the level of intellectual intelligence (IQ) of students when teaching geography, the role of tasks in the formation of 21st century skills, which is currently considered the main goal of the education system. The article also analyzes the positive impact of providing examples of tasks that reveal the level of intellectual intelligence (IQ) in the content of the subject "Geography" on students' worldview, as well as mastering the content of the subject.

**Keywords:** intellectual intelligence (IQ), types of thinking, 21st century skills, monitoring and evaluation. table, map